## LƏTİF KƏRİMOVUN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

***Azərbaycan xalçaçı-rəssamı, xalçaşünas, Azərbaycan xalq rəssamı Lətif Kərimov 1906-cı il noyabr ayının 17-də Şuşa şəhərində anadan olmuşdur.***

| | |
|---|---|
| **1912** | Ailəsi ilə birlikdə İranın Məşhəd şəhərinə köçüb. Burada kalliqrafiya və xalça sənətini öyrənməyə başlamışdır. |
| **1922** | Məktəbi bitirdikdən sonra Mirzə Hüseyn Ələkbərzadənin xalça emalatxanasında rəssam və usta köməkçisi kimi fəaliyyət göstərmişdir. |
| **1928** | Şuşada “Qarabağxalça” artelində təlimatçı kimi işləyib, Azərbaycanın müxtəlif bölgələrində xalçaçılıq ənənələrini öyrənmişdir. |
| **1930** | “Azərbaycanxalça” birliyində rəssam-təlimatçı, sonralar isə bədii-texniki rəhbər vəzifəsində çalışmışdır. |
| **1932** | Bakıda və Qubada xalça məktəblərinin yaradılmasına töhfə verib; “Əfşar” xalçası onun eskizi əsasında toxunmuşdur. |
| **1934** | Firdovsinin 1000 illiyinə həsr etdiyi xalça Parisdə keçirilən beynəlxalq sərgidə nümayiş etdirilmişdir. |
| **1937** | Bakıda Mərkəzi Boyaqçılıq Emalatxanasının yaradılmasına təşəbbüs göstərmişdir.. |
| **1940-1941** | Lətif Kərimov tanınmış rəssamlarımız (K. Kazımzadə, İ.Axundov və başqaları ) ilə birlik-də dahi Azərbaycan şairi Nizami Gəncəvinin yubileyinə həsr beş xalça hazırlamışdır . |
| **1945** | Azərbaycan SSR EA-nın Memarlıq və incəsənət institutunda ayrıca xalça şöbəsinin açılmasına nail olmuşdur |
| **1946** | “Şərəf nişanı”ordeni ilə təltif olunmuşdur. |
| **1950** | Onun "Azərbaycan xalçalarında ornament" əsərinə görə Lətif Kərimova Leninqrad şəhərində sənətşünaslıq namizədi-alimlik dərəcəsi verilmişdir. |

| | |
|---|---|
| **1950** | Xalça sənətinin inkişafındakı xidmətlərinə görə SSRİ Dövlət Mükafatına layiq görülmüşdür. |
| **1950** | “Stalin” mükafatı ilə təltif olunmuşdur. |
| **1955** | Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.. |
| **1957** | “Qırmızı əmək bayrağı” ordeni ilə təltif edilmişdir. |
| **1960** | Azərbaycan SSR-in Xalq rəssamı fəxri adını almışdır. |
| **1961** | Lətif Kərimovun “Azərbaycan xəlçəsi” adlı kitabı Az.SSR EA nəşriyyatında çap olunmuşdur. |
| **1967** | Lətif Kərimovun təşəbbüsü ilə Bakıda xalça muzeyi təşkil olunmuşdur. |
| **1972** | Lətif Kərimovun təşəbbüsü ilə Bakıda Xalça Muzeyi təşkil olunmuşdur. |
| **1976** | 2-ci dəfə “Qırmızı əmək bayrağı” ordeni ilə təltif edilmişdir. |
| **1981** | Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanına layiq görülmüşdür. |
| **1983** | “Azərbaycan xalçalarının naxış elementlərindən nümunələr” kitabı “Elm” nəşriyyatında çap olunmuşdur. |
| **1985** | Lətif Kərimovun “Azərbaycan xalçası” kitabı “Yazıçı” nəşriyyatı tərəfindən nəşr olunmuşdur. |
| **1986** | “Xalqlar Dostluğu” ordeni ilə təltif olunmuşdur. |
| **1991-ci il 8 sentyabr** | Bakıda vəfat edib və Fəxri Xiyabanda dəfn olunmuşdur. |
| **1993-2014** | Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinə Lətif Kərimovun adı verilmşdir. |
| **2014–2019-cu illərdə** | Azərbaycan Xalça Muzeyi, 2019-cu ildən bu günədək Azərbaycan Milli Xalça Muzeyi adlanır. |

| | |
|---|---|
| **2006-ci il 27 oktyabr** | Azərbaycan Respublikası Prezidenti Lətif Kərimovun anadan olmasının 100 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır. |
| **2006-2007-ci illərdə** | YUNESKO-nun Baş Assambleyasının 33-cü qərarına əsasən tanınmış azərbaycanlı sənətşünas, rəssam Lətif Kərimovun yüz illik yubileyi YUNESKO-nun mötəbər tarixlər Siyahısına daxil edilmişdir.<br><br>Azərbaycan xalçaçılıq sənəti də beynəlxalq səviyyədə dəyərləndirilərək YUNESKO-nun "Bəşəriyyətin Qeyri – Maddi Mədəni İrsinin Reprezentativ Siyahı"sına daxil edilmişdir |
| **1993-2014** | Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi adını daşımışdır. |
| **2022** | Lətif Kərimovun "Azərbaycan xalçası" kitabı "Azərxalça" nəşriyyatı tərəfindən iki dildə: (Azərbaycan, ingilis) çap edilmişdir. |
| **2026** | Azərbaycan Prezidenti Lətif Kərimovun anadan olmasının 120 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır. |